UOT: 334

Elşən YUSİFOV
Azərbaycan Kooperasiya Universitetinin doktorantı
yelshan3@gmail.com
10.30546/4.71.73001.2024.018

MÜASİR MƏRHƏLƏDƏ İNKLÜZİV İNKİŞAF VƏ SAHİBKARLIĞIN TƏŞƏKKÜLÜ PROBLEMLƏRİ

Xülasə

Tədqiqatın məqsədi – inklüziv inkişaf bazasında sahibkarlığın formalaşmasının məzmun və əhəmiyyətinin öyrənilməsi, ölkənin iqtisadi sahədə qəbul etdiyi müasir yenilənmə kursunun araşdırılması, yarana biləcək vəziyyətlərin çoxamilli şəkildə öyrənilməsi.

Tədqiqatın metodologiyası – müşahidə, qruplaşdırma, müqayisəli təhlil, zəncirvari əlaqə və zəncirvari asılılıq metodlarından istifadə olunması.

Tədqiqatın nəticələri – müasir mərhələdə müvafiq araşdırmanın “inklüziv inkişaf – sahibkarlıq mühitinin formalaşdırılması” vəhdətində nəzərdən keçirilməsi, zəruri araşdırmaların təşəkkülü, ola biləcək situativ variantların qiymətləndirilməsi və təhlili, bu istiqamətdə zəruri seçim və əsaslandırmaların həyata keçirilməsi.

Tədqiqatın praktiki əhəmiyyəti – ölkəmizdə ənənəvi şəkildə mövcud olan iqtisadi alət və vasitələrin, mexanizm və üsulların müasir tələblərlə uyğunlaşdırılması, yarana biləcək maneə və çətinliklərin optimallıq və səmərəlilik prinsiplərinə uyğun aradan qaldırılması.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – inklüziv inkişafa keçid şəraitində sahibkarlığın bərqərar olunmasının təməllərinin transformasiya və təkmilləşdirilmələrinə müasir yanaşmaların sistemli şəkildə və komplekslilik elementləri nəzərə alınmaqla tətbiqi.

Açar sözlər: sahibkarlıq, sahiblarlıq istiqamətləri, inklüziv inkişaf, iqtisadi-təşkilati problemlər, Azərbaycan Respublikası

Giriş

Azərbaycan Respublikasında 2020-ci ilin 44 günlük II Qarabağ müharibəsi və 2023-cü ilin sentyabr ayındakı birgünlük terror əməliyyatı, ölkəmizin hərbi, siyasi və digər fəaliyyət yönləri ilə onun iqtisadi sisteminə və mühitinə mərhələli şəkildə yeni, daha mütərəqqi “rənglər və çalarlar” əlavə olunmuşdur. Bu istiqamətlərdən biri də fərdi sadə təkmilləşdirilmələrdən sistemli inklüziv inkişafa doğru hərəkətlənmələrdir.

Məqalədə iki məqam vahid tandem halında tədqiqata məruz qalacaqdır. Əgər bunlardan biri sahibkarlıq, onun mühitinin formalaşdırılmasıdırsa, qarşılaşdırmada ikinci elementi inklüziv təməllər təşkil etməkdədir.

İnklüziv inkişafın məzmununu üç komponentin məcmusu təşkil etməkdədir. Burada iqtisadi, sosial və təbiət elementlərinin vahid müstəvidə səmərəli və optimal şəkildə birgə araşdırılması, onların hər birinin özünün sərgilənməsi şəklində, qarşılıqlı təsir və əks təsirlərin səviyyələrinin müəyyən edilməsidir. Son dövrlərdə inklüziv inkişafın “**Yaşıl**” adı altında mövcudluğu bir sıra yeniliklərə səbəb olmuşdur ki, onların sırasında da aşağıdakıları qeyd etmək zəruridir:

- ✓ təbliğ olunan komponentlərin qarşılıqlı əlaqə və asılılıq rejimində vahid müstəvidə birləşdirilməsi;
- ✓ onun məqsədlərinin cəmiyyətin yaşam tərzinin formalaşdırılmasında yaratdığı müsbət məqamlar;
- ✓ həmin seçimlərin dövlətin strateji hədəfləri sırasında mühüm yer tutması və s. [4, s. 52]

Keçən əsrin ikinci yarısından başlayaraq inklüziv mühitin təzahürləri mövcud olmuşdur. Ayrı-ayrı amillərin, əlamətlərin, meyillənmələrin və tərkib elementlərinin təzahürü inklüziv iqtisadiyyatı zamanla cəmiyyətin tələbinə çevirmişdir. Belə ki, sosial elemenet hesab olunan insan iqtisadi

sistemin hər hansı subyektində fəaliyyət göstərməklə iqtisadi element rolunda çıxış edir, digər tərəfdən isə onun təmiz suya və havaya, yaşıllıq zonalarında istirahətə və təbiətin digər təzahür elementlərinə ehtiyacı sərgilənməkdədir ki, bu da həmin insanı araşdırmanın "mərkəzində" edir. Deməli, burada iqtisadi, sosial və təbiət elementləri özünəməxsus xarakter, ifadə formaları və xassələri ilə əhatə etməklə onun yaşam, mövcudluq tərzinə bu və ya digər şəkilləndirmələri həyata keçirməkdədir [3, s. 137].

Digər tərəfdən sahibkarlıq anlayışı çoxsaylı iqtisadi-təşkilati, sosial-psixoloji, hüquqi-tənzimləmə və digər keyfiyyətləri özündə birləşdirməkdədir. Tanınmış alim Şumpeterin fikrincə, yeni ideyaların "yaradıcısı" və cəmiyyətin istifadəsinə təqdim edən sahibkar bəlli fəaliyyətlərin təcrübi təşəkkülünə yönəlmiş fikir və düşüncələrin, işlərin və icraatların təməl komponentlərindən hesab olunmaqdadır.

Fəaliyyətinin təşkilində xarakterik mövcudluq və yenilənmə xəttinə sadiq qalan sahibkar cəmiyyətin tələblərinə daha geniş şəkildə hakim olur. İstehsal və xidmət proseslərinin təşkili və ardıcıl icrasına qərar verən həmin şəxsin bir məqsədi gəlirlərin əldə olunmasıdırsa, digər mühüm məqsədlər sırasında daha çox istehlakçı kütləsini öz tərəfinə çəkmək, bəşər toplusunun tələblərini mikroanlamda daha yüksək qarşılamaq durur.

Sahibkarlıq fəaliyyəti və ölkədə işgüzar mühitin formalaşdırılması

Giriş hissəsində də qeyd olunduğu kimi, sahibkarlıq fəaliyyəti – kifayət qədər şaxələndirilmiş fəaliyyətlərin, yön və istiqamətlərin məcmusu kimi çıxış etməkdədir. Müasir mərhələdə yenilənmə və fəaliyyət ahəngdarlığının təmin edilməsi, təkmilləşdirmə və transformasiya tipli addımların atılması müvafiq məcmunun ayrı-ayrı xarakter və xassələrinə, həmçinin inkişaf yolları və meyilləri sahəsində seçimlərin edilməsinə təsirsiz ötüşməmişdir.

Sahibkarlıq mühitinin formalaşmasında fərdi keyfiyyətlərin nümayişi, həmçinin "sahibkarlıq – dövlət" müstəvisində icra olunan işlər Azərbaycan Respublikasında çoxsaylı amillərin daha aktiv şəklə gətirilməsini şərtləndirməkdədir. Fikrimizcə, belə yanaşma zamanı çoxsaylı, özünün yüksək əhəmiyyəti ilə fərqlənən amillərin ortaya çıxarılmasına səbəb olacaqdır.

İstehsal (xidmət) fəaliyyətinin məqsəd və vəzifələrinin müəyyən edilməsi, onların müasir dövrün tələbləri ilə uyğunluq təşkil etməsi sahibkarlıq fəaliyyətinin ilk növbədə "sahə-istiqamət" konturlarının müəyyən edilməsinə, bəhs olunan yöndə "sərhədlərin" dəqiqləşdirilməsinə təsir edəcəkdir. Fərdi düşüncə və təşəbbüs əsasında qəbul olunan sahibkar qərarları ilə yanaşı müzakirə, fikir mübadiləsi (yeri gələndə isə bəzi mübahisələrin mümkün hallarının müşahidə olunması) nəticəsində yekun qərarların verilməsi, onların əsaslandırılması fəaliyyətin məzmunu və məqsədləri haqqında müfəssəl düşüncəni ortaya çıxarmaqdadır [2, səh. 244].

Məqsədlərdən irəli gələn vəzifələr də fəaliyyətin mahiyyətini korreksiya etməklə yanaşı onun əhəmiyyətinə diqqəti çəkməkdədir. Belə ki, sahibkar özünün fəaliyyətini təşkiletmə mərhələsində ölkədaxili, yaxud regional bazar haqqında zəruri məlumatlandırmalara malik olduqdan sonra "nə istehsal etməli? (yaxud hansı xidməti həyata keçirməli ?)" sualına tammənalı cavab tapmalıdır.

İxtisaslaşma istiqamətinin seçilməsi mübadilə məkanlarının ehtiyaclarının dəqiqləşdirilməsini tələb etməkdədir. Bununla yanaşı məhsulun yaxud xidmətin növ-çeşid ifadəsinə aydınlıq gətirilməli, standartlara uyğunluq və məhsulların (xidmətlərin) təhükəsizlik məsələləri (qida təhlükəsizliyi və s.) öyrənilməlidir. Məhs belə monitorinq və araşdırmalar xüsusi vəzifələrin formalaşmasına yol açmaqdadır.

Qeyd olunan vəzifələrlə yanaşı ümumi təyinatlı vəzifələr də formalaşdırılmaqdadır ki, onların sırasında aşağıdakıların sadalanmasını lazımi hesab edirik:

- ✓ istehsalın ümumi və bölmələr üzrə quruluşunun müəyyən edilməsi;
- ✓ onun texniki-texnoloji silahlandırılması, kadr personalı üzrə ümumi say və tərkib ifadələrinin dəqiqləşdirilməsi;
- ✓ istehsalın (xidmətin) obyektləri üzrə smetaların hazırlanması;
- ✓ zəruri maliyyə (maya dəyəri üzrə, satış qiyməti üzrə, elmi tədqiqatlara və təcrübə-konstruktor işlərinə yönəldilən vəsaitlər üzrə, əməkhaqqı fondunun formalaşdırılması, əmək ödənişlərinin

normativ və səviyyələri üzrə, sosial problemlərin tam və ya qismən aradan qaldırılması üzrə və s.) fəaliyyətinin həyata keçirilməsi üçün istinad bazalarının müəyyənləşdirilməsi və s.

Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində işgüzar mühitin mövcudluğu mühüm əhəmiyyət kəsb etməkdədir. Bəhs olunan yöndə iki qrup – subyektdaxili və subyektdənkənar mühitlər təsnifləşdirilə bilər. Subyektdaxili mühit istehsal yaxud xidmət müəssisəsinin çərçivələri daxilində formalaşmış olan bölmələr və fəaliyyətlər arasındakı əlaqələri ifadə etməkdədir. Bu sırada əsas “vahidlər” kimi ümumi təyinatlı (idarəetmə heyəti, mühasibat, mühəndis-texniki bölmə və s.) və xüsusi bölmələr (istehsal sexləri, pres və tara sexləri, hazır məhsul anbarları, sinaq-konstruksiya bölmələri və s.) fərqləndirilməkdədir. Bəhs olunan məsələdə həmin strukur bölmələr arasında mövcud olan qarşılıqlı əlaqələr nəzərdə tutulmaqdadır.

İstehsal subyektlərinin daxili ilə çərçivələnməyən və “subyekt – kənar məcmular” cütlüyünün əlaqələndirilməsi mühüm əhəmiyyət kəsb etməkdədir. Subyektdən kənar işgüzar mühit özündə çoxsaylı elementləri birləşdirməkdədir. Maddələrin hər biri haqda fərdiləşdirilmiş fikir və düşüncələrin bildirilməsini məqsədəuyğun hesab edirik.

İşgüzar mühitin formalaşmasında ilk istiqamət elementini iqtisadi-təşkilati və idarəetmə mühit təşkil etməkdədir. Subyektdaxili işgüzar mühitin “davamı” kimi qiymətləndirilən subyektdənkənar mühitin əsas manqası kimi qiymətləndirilən iqtisadi-təşkilati və idarəetmə mühiti özündə bir çox istiqamətləri cəmləməkdədir. Onların sırasında ilk növbədə istehsala qədərki və istehsaldan sonrakı fəaliyyət çoxluğu nəzərə çarpmaqdadır. Belə ki, təchizat-tədarük proseslərinin istehsal proseslərinin təşkili və həyata keçirilməsində nə qədər mühüm olduğunu qiymətləndirməmək mümkün deyil.

İstehsal üçün xammal və material, konstruksiya və detallar, ümumi və ixtisaslaşdırılmış taralar, yanacaq və ehtiyat hissələri, emal təyinatlı yarımfabrikatlar, həmçinin zəruri əsas fond obyektləri, nəqliyyat vasitələri, logistika sistemi üçün zəruri olan komponentlər və digər fəaliyyət komponentlərinin əldə olunması və subyektin ümumi fəaliyyətinin təşkilində istifadəsi öz əhəmiyyətini qorumaqdadır. Öz növbəsində istehsal proseslərinin ilkin deyil, aralıq mərhələlərində istifadə üçün əldə olunan yarımfabrikatlar da subyektdən xaricdə ikitərəfli və ya çoxtərəfli əlaqələr vasitəsilə bərqərar olan işgüzar mühitin iqtisadi-təşkilati aspektinə diqqəti çəkməkdədir. İstehsala və ya ümumilikdə fəaliyyətə rəhbərliyin həyata keçirilməsi də bu bənddə əks olunmaqdadır.

Kənardan əldə olunan və ya kənara təhvil verilən istehsal yaxud xidmət obyektləri üzrə əməliyyatlar qarşılıqlı hüquq, vəzifə və öhdəlikləri əks etdirən müqavilələrlə rəsmiyyətə salınmaqdadır. Adətən müvafiq müqavilələr müəssisə və təşkilatların “təkhakimiyyətlilik” dairəsindən kənarda hazırlanır və onların maddələrinin yekun müzakirələrdən sonra razılaşdırılmaqla təcrübi tətbiqinə start verilməsi baş tutur. Digər tərəfdən, istehsalçı müəssisə tərəfindən qəbul olan strateji kurs, onunla bağlı taktiki gedişlər iqtisadi-təşkilati və idarəetmə sferasında mühitin mövcudluğu və inkişafı yönündəki vəziyyəti sərgiləməkdədir.

İşgüzar mühitin formalaşmasında həlledici yerlərdən birini də elmi-araşdırma və texniki-texnoloji mühit təşkil etməkdədir. Belə ki, bəlli inkişaf səviyyəsi ilə fərqlənən istənilən subyekt imkanları daxilində (subyektin özünün ixtira-konstruktor bölmələri tərəfindən) müstəqim və ya birgə fəaliyyətlə “elm ↔ təcrübə” müstəvisində təmsil olunan elmi araşdırmalara cəlb oluna bilər, yaxud uyğun elmi-araşdırma nəticələri onun “istehsalçılarından” əldə olunmaqdadır. Bu faktor eyni zamanda subyekt daxilində tətbiq olunan texnikanın və onu şərtləndirən texnologiyaların inkişaf səviyyəsindən xəbər verməkdədir.

İşgüzar mühitin formalaşmasında siyasi və hüquqi faktorların təsirinin nəzərə alınmaması mümkün deyildir və araşdırmalarda səhv nəticələrin ortaya çıxmasına səbəb ola bilər. İstənilən ölkənin iqtisadi bazisi ümumiyyətlə onun siyasi üstqurumu ilə vəhdət halında mövcudluğunu təsdiqləməkdədir. Həmin reallığın mikromühitə şamil edilməsi, ölkənin və onun regionlarının qəbul edilmiş siyasi kursun tələblərinə uyğunlaşdırılması da mühüm şərtlərdən hesab olunmaqdadır.

İstehsalın genişləndirilməsi, ərzaq bolluğunun yaradılması, qida təhlükəsizliyinin təmin edilməsi, iqtisadi sahə və istiqamətlərin fəaliyyətinin standartlaşdırılması və lisenziyalaşdırılması kimi

məsələlər siyasi yönlə yanaşı hüquqi tənzimləmə sferasında da əhəmiyyətini qorumaqdadır. Belə ki, bəhs olunan sahələrdə Azərbaycan Respublikasının birbaşa və dolayı aidiyyatı ilə fərqlənən Qanunlarının və digər aşağı səviyyələrdəki hüquqi-normativ aktların (əmr, qərar, sərəncam və s.) istifadəyə verilməsi iqtisadi sistemin sahə və istiqamətlərinin dövlət tərəfindən nizamlanmasında atacağı addımları sərgiləməkdədir. Digər tərəfdən, dövlət sektoruna aidiyyatı ilə fərqlənən subyektlərin idarə edilməsi də spesifik tənzimləmə əməliyyatlarına məruz qalmalıdır.

İşgüzar mühitdə təbii yerquruluşu, coğrafi yerləşmə, təbii ehtiyatların istifadəsi kimi yön və istiqamətlər də böyük rol oynamaqdadır. Zonalarda ümumi torpaq həcmləri və onlardan istifadə imkanlarının qiymətləndirilməsi, yerquruluşu məsələlərinin və onların iqtisadi həmçinin sosial dövriyyəyə məqsədyönlü şəkildə cəlbi xarakterinin dəqiqləşdirilməsi, "təbii ehtiyatlar – onlardan istifadə yolları" kontekstində müvafiq tədqiqatların həyata keçirilməsi ölkənin ümumi iqtisadi potensialı haqqında təsəvvür yaratmaqdadır. Sadalanan bəndlərin hər biri ümumilikdə ölkənin işgüzar mühit mənzərəsinə baxışı təmin etməkdədir. Bəhs olunan və işgüzar mühitin formalaşdırılmasında aktiv iştirak edən bəndlər hər biri öz növbəsində müvafiq altsistemləri təşkil etməkdədir. Onlar eyni zamanda təbiətlə, təbii resurslardan istifadə ilə əlaqədə olduğu üçün inklüzivlik elementi kənarda qalmamaqdadır.

Təbiətdən, onun resurslarından səmərəli istifadənin əsas qayələrindən biri bu elementlərə vurulan zərərin minimallaşdırılması və ya tamamilə ləğvidir. Ayrı-ayrı sahə və istiqamətlərin inklüzivlik dərəcəsi məhs həmin təbii resurslardan itkisiz istifadəni, havaya zərərli istehsalat qazlarının buraxılmasının minimallaşdırılması, meşə ehtiyatlarından rasional istifadənin təşkili, su ehtiyatlarının və su hövzələrinin çirkləndirilməsinin qarşısının alınması, çıxarılan faydalı qazıntı ehtiyatlarının istehsalda tətbiqinin sistemliliyinin yüksəldilməsi və digər bu kimi göstəricilərlə səciyyələnməkdədir. Digər tərəfdən, təbii ehtiyatlar bərpa olunan və olunmayan istiqamətlər üzrə təmərküzləşməkdədir. İnklüziv iqtisadiyyat və inklüziv inkişafın tələbləri sırasında bərpa olunan qrup üzrə fəaliyyət proqramlarının hazırlanması və gerçəkliyə çevrilməsi əhəmiyyətini qorumaqdadır. Bu sahədə yeni meşə sahələrinin və zolaqlarının yaradılması, sutəmizləyici qurğulardan istifadə dərəcəsinin yüksəldilməsi "yaşıl" enerji növlərinin iqtisadi dövriyyədə aktiv təmsil olunmasının təmin edilməsi və bu istiqamətdə mövcud olan digər fəaliyyətlər üzrə işlərin icrasını nəzərdə tutur [6, səh. 29].

Yaddan çıxarmaq lazım deyil ki, işgüzar mühitin sadalanan elementləri ilə yanaşı sosial, mədəni, maarifləndirici, demoqrafik, kadr potensialı və ixtisaslaşdırılması və digər tərkib elementlər də mövcuddur.

Regional sahibkarliq: fəaliyyətin növləri və təşkilati formaları

Azərbaycan Respublikasında ümumi şəkildə təşəkkül tapmış işgüzar (biznes məzmunlu) mühitin tələbləri onun bütün ərazisində gözlənilməkdədir. Bununla belə regional müstəvi və onun gətirdiyi diversifikasiya problemləri ölkənin iqtisadi sisteminə öz təsirini göstərməkdədir.

Regional müstəvidə sahibkarlıq özünün spesifikasiyaları ilə fərqlənməkdədir. Bu sırada aşağıdakı istiqamətlər üzrə araşdırmaların həyata keçirilməsini zəruri hesab edirik:

1) regionun iqtisadi potensialının ümumi vəziyyətinin müəyyən edilməsi;

2) region istehsalının ixtisaslaşma istiqamətlərinin sistemli xarakterizə olunması;

3) onun coğrafi yerləşməsi və təbii ehtiyatlarla zənginlik dərəcəsinin aydınlaşdırılması;

4) region miqyasında mübadilə məkanlarının mövcudluğu və fəaliyyətlərinin nəzarət altına alınması;

5) kadr potensialının real səviyyələrinin dəqiqləşdirilməsi və onun təkrar istehsalı üzrə işlərin araşdırılması;

6) nəqliyyat-logistika fəaliyyətinin təşkilini xarakterizə edən komponentlərin mövcudluğu, onun səviyyə və təmin olunma dərəcəsi əsasında müşahidə altına alınması;

7) iqtisadi sistemin sahə və istiqamətlərində müasir təşkilatlanma quruluşlarından istifadə vəziyyətinin tədqiqi;

8) rayonlararası yük mübadilələrinin, onların intensivliyinin nəzarət altına alınması;

9) regionda sosial, tənzimləmə və digər göstəricilər üzrə inkişafın vəziyyəti;
10) demoqrafik vəziyyətin və xüsusiyyətlərin öyrənilməsi;
11) regionun iqtisadi sisteminin sahə-istiqamət quruluşu nəzərə alınmaqla subyektlər üzrə təşkilati formalara müraciətlərin araşdırılması və s.

Regionların (Bakı şəhəri və Abşeron iqtisadi rayonu istisna olmaqla) iqtisadi sistemlərinin öyrənilməsi rəsmi statistika informasiyalarına müvafiq olaraq aşağıdakı reallıqları sərgiləmiş olur:

- ✓ regionlar üzrə istifadə olunan əsas təsərrüfatçılıq formaları əsasən kiçik və mikro subyektləri əhatə etməkdədir;
- ✓ sahibkarlıq fəaliyyətinin və işgüzar mühitin nisbətən zəif inkişafı və şaxələndirilməsi ilə xarakterizə olunmaqdadır;
- ✓ bir çox hallarda varislik prinsipləri ilə idarə olunan ailə təsərrüfatlarının yaradılması üstünlük təşkil etməkdədir;
- ✓ dövlət idarəetmə strukturlarının regional miqyasdakı təmsilçiləri tərəfindən bir sıra hallarda bürokratik əngəllərin yaradılması;
- ✓ təsərrüfat subyektləri adətən kiçik maliyyə dövriyyələrilə və azsaylı işçi kontingenti ilə fərqlənməkdədir;
- ✓ texniki və texnoloji imkanların məhdudluğu müşahidə olunmaqdadır;
- ✓ torpaq resurslarının rekultivasiya, təkrar aktiv iqtisadi dövriyyəyə qazandırılma, müasir fəaliyyət üsulları, alət və vasitələrinin istehsalda tətbiqi, avtomatlaşdırma və mexanikləşmə səviyyəsinin zəif olması kimi problemlərin mövcudluğu;
- ✓ su ehtiyatlarından sistemli və kompleks istifadə üzrə qiymətləndirmələrin aparılmaması, zəruri səmərəli təkliflərə müraciət olunmaması;
- ✓ mobil rabitə imkanlarından, o cümlədən kompüterlər və hesablama vasitələri şəbəkəsinin digər komponentlərindən tammənalı istifadənin mümkünsüzlüyü;
- ✓ iqtisadi sisetmin sahələri və istiqamətləri arasında əsasən aqrar sferanın və emal sənayesi subyektləri, həmçinin xidmət sektorunun vahidləri üstünlük təşkil etməkdədir;
- ✓ müştəri sayının azlığı və informativliyin zəif təmin olunması nəzərə çarpır və s.

Bəhs olunan hər iki təsnifat regionda sahibkarlıq və inklüzivlik parametrləri üzrə müxtəlif situativ variantların yaranmasına səbəb olmaqdadır. Daha dəqiq informasiyanın əlçatanlığını təmin üçün rəsmi statistik və subyeklərin fərdi məlumatlarından istifadə etməklə iqtisadi-riyazi metodların köməyinə müraciət olunmalıdır.

“Planlaşdırma (proqnozlaşdırma) işləri – sahibkarlıq fəaliyyəti”: qarşılıqlı əlaqə və təsirlər

Sahibkarlıq fəaliyyətinin təşkili və həyata keçirilməsində idarəetmənin mühüm vasitələrindən hesab olunan planlaşdırma və proqnozlaşdırma fəaliyyətinin rolu böyükdür.

Miqyas etibarı ilə makro (ölkə və regionlar səviyyəsində icra olunan) və mikro səviyyələrdə (təsərrüfat subyektləri tərəfindən) icra olunan planlaşdırma fəaliyyəti mümkündür. Planlaşdırma işlərin təşkil olunduğu səviyyələr etibarı ilə fərqli göstəriciləri əhatə etməkdədir. Məsələn, respublikamız və ya region səviyyələrində aparılan planlaşdırma fəaliyyətində əhalinin və əlaqəli istehsalların (istehsal potensialının) ehtiyaclarının müəyyən edilməsi, idxal və ixrac imkanlarının qiymətləndirilməsi, beynəlxalq kombinələşmə və koopersiya problemləri üzrə ardıcıl addımların həllinin araşdırılması mühüm addımlar kimi nəzərdə tutulduğu halda, mikro planlaşdırma tədbirləri özündə xammal, əsas və köməkçi materialların, tara, gübrə, yanacaq və sürtkü məmulatlarının, yarımfabrikatların və dövriyyə vəsaitlərinin digər komponentlərinin təchizatı və istehsallarda istifadə norma və normativlərinin, işçi personalının bilik və bacarıqlarından istifadənin, sosial və tənzimləmə kontekstində icra olunan işlər üzrə mütləq və əmsal göstəricilərin istifadəsi ilə həyata keçirilməsi ön plana çəkilməkdədir [10, səh. 73].

Digər tərəfdən, əgər planlaşdırma birbaşa istehsalların texniki-texnoloji səviyyələrinə tətbiqi xarakterli “don”geyindirirsə, proqnozlaşdırma fəaliyyəti real mövcud olan elementlərin vəziyyətinin qiymətləndirilməsi ilə yanaşı bəlli zaman intervalları çərçivələrində yeni (xüsusilə də

çatışmayan) "həlqələrin" yaradılması məsələlərini və problemlərini gözlər önünə gətirməkdədir. Öz növbəsində proqnozlaşdırma bəlli xüsusi çəkilər şəklində makro və mikrosəviyyələrin müxtəlif fəaliyyətlərini və ixtisaslaşma istiqamətlərini əhatə etməkdədir ki, onların mühüm bölmələrinin nümunəvi ardıcıl siyahısını aşağıdakı kimi ifadə etmək mümkündür:

- ✓ sosial – iqtisadi inkişafın baza şərtərinin proqnozlaşdırılması;
- ✓ iqtisadiyyatın quruluşunun və iqtisadi artımın proqnozlaşdırılması;
- ✓ regional inkişafın proqnozlaşdırılması;
- ✓ təşkilati-idarəetmə və tənzimləmə prosesləri üzrə vəziyyətin proqnozlaşdırılması;
- ✓ maliyyə-kredit resurslarının proqnozlaşdırılması;
- ✓ qiymətlərin proqnozlaşdırılması (o cümlədən dövlətin strateji istiqamətlərində maya dəyəri ünsürləri üzrə proqnozlaşdırma işlərinin aparılması);
- ✓ elmi-texniki tərəqqi və innovasiya fəaliyyətinin proqnozlaşdırılması;
- ✓ xarici iqtisadi fəaliyyətin və əlaqələrin proqnozlaşdırılması;
- ✓ inflyasiya proseslərinin proqnozlaşdırılması və s. [9, səh. 35]

Məqalənin işlənilməsində fərdi komponentlərin və fəaliyyət fazalarının işıqlandırılması işlərin təcrübi müstəvidə sistemli və kompleks şəkildə hansı formada aparılmasından xəbər verməkdədir.

Nəticə

Mövzunun tədqiq edilməsi müasir inkişaf mərhələsində Azərbaycan Respublikasında ölkənin iqtisadi sisteminin yeni təməllərə - inklüziv, təbii amillərin qorunması faktorlarına transformasiya tədbirlərini, bu sahədə təkmilləşdirmə kursunun qəbul olunmasını şərtləndirməkdədir. İqtisadi və sosial mühit amillərilə uzun illər mövcud olmuş ölkənin iqtisadi sisteminə ekoloji mühit amillərinin əlavə edilməsi, bu əsasda isə yaradılan yeni sistem ölkə iqtisadiyyatının, onun vətəndaşının təhlükəsiz yaşam tərzinin qorunmasını təmin etmək məqsədini güdməkdədir.

Digər tərədən, sahibkarlıq fəaliyyəti, onun zəruri komponentlərlə zənginləşdirilən mühiti ölkənin, onun regionlarının və fərdi subyektlərin həyatında təkanverici amil kimi çıxış etməkdədir. Yeni ideyaların təcrübəyə yol tapması, müasir düşüncə tərzlərinin isə onları müşayiət etməsi modern istehsalatların formalaşmasına səbəb olmuşdur. İqtisadiyyatın aparıcı sahəsi olan sənayenin, ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan kənd təsərrüfatının, əsas fondların bərpa və yaradılmasının, investisiyalaşma proseslərinin təməl sahəsi hesab edilən tikintinin, həmçinin ticarət və iaşənin, rabitə və nəqliyyatın pay nisbətləri şəklində ÜDM-in formalaşmasında oynadığı rolun qiymətləndirilməsinə şərait yaradır.

Sahibkarlıq fəaliyyətinin təşkili və həyata keçirilməsində təsərrüfat vahidlərinin işlərinin təşkilində müxtəlif idarəetmə alətlərindən istifadənin mövcudluğu, onların istifadə mexanizmlərinin aktivləşdirilməsi müvafiq mühitin səviyyəsinin yüksəldilməsinə səbəb olmaqdadır.Bu sırada mühitə özünəməxsus təsirləri ilə fərqlənən menecment və marketinq, planlaşdırma və proqnozlaşdırma kimi idarəetmə mexanizmləri və alətlərinin imkanlarından istifadə kifayət qədər rəngarəng situasiyaların və istehsalat kombinasiyalarının formalaşmasını diktə etməkdədir.

"Sahibkarlq fəaliyyəti – inklüziv inkişaf" tandemi üzrə tələblər uzun müddətdən bəri gələn, "sovet" mühitində mövcud olan reallığın daha təkmil mərhələlərə keçidini təmin etməkdədir. Deyilən vəziyyətin daha yüksək səviyyə və mərhələlərə keçidi həmçinin modern istehsal və xidmət quruluşlarına (sənaye məhəllə və parkları, aqroparklar, texnoparklar və s.) və üsullarına (sadələşdirilmiş verginin tətbiqi, "yaşıl" enerjidən istifadə, istehsalatların təminatının imtiyazlı şərtlərlə həyata keçirilməsi və s.) müraciət olunması, tənzimləmə sahəsində hüquqi-normativ bazanın təkmilləşdirilməsi, onun aktlarına edilən əlavə və dəyişikliklərin edilməsi kimi işləri də nəzərdə tutmalıdır.

Lakin bütün fəaliyyətlərin təbiət-ekoloji komponentin tələbləri üzərindən həyata keçirilməsi digər şərtlərlə yanaşı inklüziv inkişafın ehtiyaclarının daha əhatəli həcmlərdə qarşılanmasını ifadə etməkdədir. Belə ki, tələblərin səviyyəsinin yüksəldilməsi istehsal amillərinin də səviyyələr, mərhələlər və dərəcələrində yüksəlişlərə, daha təkmil variantlarda təzahürlərə, seçim imkanlarının ortaya çıxmasına şərait yaratmaqdadır.

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT

1. Allahverdiyev H.B. İqtisadiyyatın dövlət tənzimlənməsi. *(Dərs vəsaiti).* Bakı: Nasir, 2002, 446s.
2. Atakişiyev M.C. Mikro və makroiqtisadiyyat. *(Dərs vəsaiti).* Bakı: Azərnəşr, 2010, 508 s.
3. Bağırov M.S. Makroiqtisadi tarazlıq: problemlər, qiymətləndirmə və təhlil fəaliyyəti. *(Dərs vəsaiti)*. Naxçıvan: Əcəmi, 2023, 216s.
4. Bağırov M.S. Müəssisə vəsaitləri mühasibat uçotunda. (*Monoqrafiya)*. I kitab. Müəssisə əmlakı. Naxçıvan: Əcəmi, 2022, 280s.
5. Bağırov M.S. Statistikanın təməl bilikləri. *(Dərs vəsaiti)*. Naxçıvan: Əcəmi, 2020, 525s.
6. Ələkbərov U.K. İnklüziv inkişafın idarə edilməsinin əsasları. Bakı: Təhsil, 2018. 216s.
7. Səmədzadə Z.Ə. Böyük İqtisadi Eksiklopediya, I cild, Bakı: Azərbaycan İqtisadçılar İttifaqı, 2012, 612s.
8. Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları. *(Dərs vəsaiti)*. Bakı: Qərənfil. 2006, 591s.
9. Mahmudov C.İ., Bağırsoylu H.Q. Sosial-iqtisadi inkişafın proqnozlaşdırılması. (*Dərs vəsaiti)*. Naxçıvan: Əcəmi, 2019, 264s.
10. Mahmudov C.İ. Biznesin əsasları. *(Dərs vəsaiti).* Bakı: ATU-nun mətbəəsi, 2008, 220s.
11. Niftullayev V.M. Sahibkarlığın əsasları. *(Dərs vəsaiti).* Bakı: Zaman, 2002, 618s.

Ельшан Юсифов
Азербайджанский Университет Кооперации

Инклюзивное развитие и проблемы становления предпринимательства на современном этапе

Резюме

Цели исследования – изучение на базе инклюзивного развития сущности и значимости формирования предпринимательства, исследование современного курса обновления, принятого на базе экономической сферы страны, а также многофакторное рассмотрение возможных вариантов и ситуаций в этом направлении.

Методология исследования – использование методов наблюдения, группирования, сопоставительного анализа, цепочной взаимозависимости и цепочных взаимоотношений.

Результаты исследования – рассмотрение на основе единства “инкюзивное развитие – формирование предпринимательской среды” соответствующих исследований на современном стадии, их становление, оценивание и анализ возможных ситуативных вариантов, претворение в жизнь необходимых отборов и обоснований в этом направлении.

Практическое значение исследования – организация традиционного сопоставления на основе современных требований существующего экономического инструментария и средств, механизмов и способов по стране, устранение на основе принципов эффективности и оптимализации возможных преград и затруднений.

Оригинальность и научная новизна исследования – применение в республике современных подходов к трансформированию и усовершенствованию основ становления предпринимательства в условиях перехода к инклюзивному развитию с учетом элементов системности и комплексности.

Ключевые слова: предпринимательство, направления предпринимательства, инклюзивное развитие, экономическо-организационные проблемы, Азербайджанская Республика.

Elshan Yusifov
Doctoral student of Azerbaijan Cooperation University

Inclusive development and organization problems of entrepreneurship in the modern stage

Summary

The purpose of the research - is to study the content and importance of the formation of entrepreneurship on the basis of inclusive development, to examine the modern renewal course adopted by the country in the economic field, to study the possible situations in a multifactorial manner.

Methodology of the research - using methods of observation, grouping, comparative analysis, chain connection and chain dependence.

The results of the research - review of relevant research at the modern stage in the unity of "inclusive development - formation of entrepreneurship environment", organization of necessary research, evaluation and analysis of possible situational options, implementation of necessary choices and justifications in this direction.

The practical significance of the research - is the adaptation of traditional economic instruments and tools, mechanisms and methods in our country with modern requirements, elimination of possible obstacles and difficulties according to the principles of optimality and efficiency.

The originality and scientific novelty of the research - the systematic application of modern approaches to the transformation and improvement of the foundations of entrepreneurship in the context of the transition to inclusive development and taking into account the elements of complexity

Key words: entrepreneurship, directions of ownership, inclusive development, economic-organizational problems, Republic of Azerbaijan.